# Ədliyyə işçilərinin peşə bayramında



Ümummilli liderimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə hər il noyabr ayının 22-də ədliyyə işçilərinin peşə bayramı qeyd edilir. Rayonumuzun ədliyyə işçiləri də öz peşə bayramlarını qeyd etmək üçün şəhərin mərkəzindəki Heydər Əliyev Parkına gələrək ulu öndərin abidəsi önünə tər qızıl gül dəstələri qoyaraq dahi şəxsiyyətə öz dərin hörmət və ehtiramlarını bildirdilər.

Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri iştirak etmişlər.



**Oqtay MƏMMƏDOV.**

# Yubiley tədbiri keçirilmişdir

Yeni Azərbaycan Partiyasının yaradılmasının 23-cü ildönümü münasibətilə partiyanın Qəbələ Rayon Təşkilatı Heydər Əliyev Mərkəziində tədbir keçirmişdir. Tədbir iştirakçıları öncə ulu öndər Heydər Əliyevin büstü önünə qərənfil dəstələri düzmüş, ümummilli liderin unudulmaz xatirəsinə ehtiramlarını bildirmiş, ekspozisiyalarla tanış olmuşlar.

Tədbirin rəsmi hissəsini giriş sözü ilə YAP Qəbələ Rayon Təşkilatı sədrinin müavini, rayon təşkilatının aparat rəhbəri Elçin Tağıyev açmış, Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 23-cü ildönümü ilə əlaqədar məruzə etmişdir.

Məruzədə Yeni Azərbaycan Paprtiyasının yaranma tarixi, həmin dövrdə Azərbaycanda hökm sürən ictimai-siyasi vəziyyət, partiyanın yaranmasında ulu öndər Heydər Əliyevin əvəzsiz rolu barədə danışılmışdır. Məruzədə eyni zamanda 22 ildir ki, iqtidarda olan Yeni Azərbaycan partiyasının keçdiyi şərəfli yol haqqında tədbir iştirakçılarına məlumat verilmişdir.

Yubiley tədbirində Qəbələ RİH başçısının müavini Ətayə Osmanova, partiyanın veteranlarından Aslan Cəlilov, Şahmurad Ağasıyev, Tofiq Şükürov, Qüdrət Səmədov, YAP Qəbələ RT gənclər birliyinin sədri Namiq Ağayev və başqaları Qəbələ rayonunda Yeni Azərbaycan Partiyasının təşkilatlanması dövrü və bu günü barədə çıxış etmişlər.





Ulu öndəri həyat və fəaliyyətinə həsr olunmuş «Şəxsiyyət» sənədli filmi nümayiş etdirilmişdir.

Tədbiri Elçin Tağıyev yekunlaşdırmışdır.

**«Qəbələ».**

# Yeni Azərbaycan Partiyasının yaranmasından 23 il keçir

1992-ci ilin may ayında Azərbaycandakı hakimiyyətsizlikdən istifadə edən bir sıra xarici dövlətlərin birbaşa dəstəyi ilə Azərbaycanda «Meydan» hərəkatının fəalları hakimiyyətə gəldilər. O vaxt hərəkatın fəallarından olan Arif Hacıyev açıq etiraf etmişdi ki, onlar doqquz ölkənin razılığı ilə hakimiyyətə gəliblər. Bəli bu siyasət naşıları xalqın dəstəyi ilə yox, xarici qüvvələrin yardımı ilə hakimiyyətə gəldikləri üçün fəxr edir, arxalarında duranların güclü olduğu barədə xalqa mesaj verirdilər. Ancaq bu meydan hoqqabazları unudurdular ki, hakimiyyətin əsas dayağı xalqdır. Xalqa arxalanmayan heç bir hakimiyyət uzun ömürlü ola bilməz. «Meydan qəhrəmanlarının» hakimiyyətə gəlməsindən qısa müddət sonra idarəetmədə, davranışda buraxdıqları ciddi səhvlər əhalinin müəyyən hissəsində AXC- Musavat cütlüyü iqtidarına olan inamının itməsinə səbəb oldu.

Elə hakimiyyətlərinin ilk aylarından başlayaraq uğursuzluğa düçar olan AXC--Musavat iqtidarı yararsız siyasətlərini düzəltmək üçün yollar aramaq əvəzinə günahkar axtarmağa başladılar.

Paytaxt Bakıda, eləcə də bölgələrdə AXC—Müsavat iqtidarının yarıtmaz siyasəti barədə fikir söyləyənlərə qarşı təqiblərə keçdilər. AXC—Müsavat hakimiyyəti özünə əsas təhlükə kimi xalqın yanında böyük nüfuza malik, xalqın ümidi, inamı olan Heydər Əliyevi görürdü. Buna görə də bütün vasitələrlə Heydər Əliyevi xalqla təmasdan təcrid etmək üçün yollar axtarırdılar.

Hətta, sovet hakimiyyəti dövründə rüşvətxor SƏDM müfəttişi olmuş, AXC—Müsavatı hakimiyyətinin daxili işlər naziri vəzifəsinə yüksəltdiyi İsgəndər Həmidov Heydər Əliyevi həbs etmək və ya fiziki cəhətdən yox etmək kimi sərsəm fikirlər səsləndirirdi. İsgəndər Həmidov öz sərsəm ideyalarını həyata keçirmək üçün 1992-ci ilin payızında Naxçıvan Muxtar Respublikası Daxili İşlər nazirini dəyişmək haqqında əmr verdi. O, Muxtar Respublika DİN-ə bu orqanlarda heç bir təcrübəsi olmayan idman müəllimi Səyavuş Mustafayevin təyin olunmasına çalışırdı. Bununla İsgəndər Həmidov Naxçıvan MR-də özünə istinad nöqtəsi yaratmaq istəyirdi. Maraqlıdır ki, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy «ərköyün» nazirin bu qanunsuz əmrinə heç bir reaksiya vermədi.

Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri Heydər Əliyev İsgəndər Həmidovun bu qanunsuz təyinatını tanımadığını bildirdi. Belə ki, Naxçıvan Muxtar Respublikasında hər hansı bir nazir vəzifəsinə təyinat məsələsi Konstitusiyaya görə Muxtar Respublika Ali Soveti ilə razılaşdırılmalı idi.

Nazir təyinatı və Muxtar Respublikada aranı qarışdırmaq niyyəti baş tutmayan İsgəndər Həmidov Naxçıvana xüsusi təyinatlı qüvvə göndərmək və Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırmaq fikrinə düşsə də xalqın Heydər Əliyevə olan böyük məhəbbəti və AXC—Müsavat Hakimiyyətinə olan inamsızlığı onun bu arzusunun da gerçəkləşməsinə imkan vermədi. Ümummilli lider sonradan həmin günləri xatırlayarkən deyirdi: «Mən Naxçıvana rəhbərlik etmək üçün getməmişdim, sadəcə mən hiss edirdim ki, nəyin bahasına olursa-olsun, xalqımla bir yerdə olmalıyam, xüsusilə də Qanlı Yanvardan sonra mən bunun üçün canımdan keçməyə hazır idim. Amma mənimlə ölümün arasında xalqım dururdu. Əvvəl məni Naxçıvana rəhbər seçdilər, sonra isə xalq tələb etdi ki, mən ölkəyə rəhbərlik edim!»

Beləliklə, Heydər Əliyev blokodada olan Naxçıvan əhalisini aclıqdan və soyuqdan qorumaq üçün bir neçə istiqamətdə mübarizə aparmalı olmuşdu. Birinci: ermənilərin ardı-arası kəsilməyən hücumunun qarşısını almaq; ikincisi: AXC—Müsavat hakimiyyətinin təzyiqlərini neytrallaşdırmaq; üçüncüsü ən başlıcası qonşu İran və Türkiyə ilə əlaqə yaradaraq Naxçıvan əhalisini aclıqdan xilas etmək. Ulu öndər bu mürəkkəb vəzifələrin hamısının öhdəsindən uğurla gəlməklə bərabər Azərbaycanın digər ərazilərində baş verən hərcmərclik, xaos hallarına da biganə qalmır, vaxtaşırı olaraq məlumatlar alır, vəziyyətdən çıxış yolu axtarırdı. Belə bir vaxtda Azərbaycanın bir qrup qabaqcıl ziyalısı, elm və mədəniyyət xadimi kimi tanınmış, cəmiyyətdə örnək qazanmış insanlar Heydər Əliyevə müraciət edərək Azərbaycanı düşdüyü vəziyyətdən çıxarmaq üçün yeni nüfuzlu bir siyasi təşkilat yaratmağı təklif etdilər. Heydər Əliyevə ünvanlanan müraciətə 91 nəfər imza atdığına görə sonralar həmin müraciət «91»-lərin müraciəti kimi tarixə düşdü. Heydər Əliyev həmin müraciətə müsbət cavab verdi və 21 noyabr 1992-ci ildə Naxçıvanda keçirilən birinci konfransda Yeni Azərbaycan Partiyası təsis olundu. Ulu öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının sədri seçildi.

Qəzetimizin əvvəlki saylarında Yeni Azərbaycan Partiyasının rayonumuzda yaranması tarixi, bu işdə fəallıq göstərən insanlar haqqında yazı dərc edilmişdir. Ancaq, bir məsələni qeyd etmək istəyirəm ki, sonrakı hadisələr göstərdi ki, Yeni Azərbaycan Partiyası çox zamanında yaranmış siyasi qüvvədir. Yeni Azərbaycan Partiyasının 1992-ci ilin həmin təlatümlu payız günlərində yaradılması faktı da ulu öndər Heydər Əliyevin nə qədər uzaqgörən siyasətçi olduğuna bir sübutdur.

**Qüdrət SƏMƏDOV.**